**Məmməd Fətəliyev**
**Fəridə Yusifzadə**

# Müasir tarix: Qərbi Avropa ölkələri XX əsrin 90-cı illərinin sonu – 2008-ci illərdə

## Dərs vəsaiti

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 31.03.2010-cu il tarixli 354 saylı əmri ilə (prtokol № 01) dərs vəsaiti kimi təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin
İşlər idarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2010

**Müəlliflər:** T.e.d., prof. Fətəliyev Məmməd Böyükxan oğlu
T.e.n., dos. Yusifzadə Fəridə Qurban qızı

**Elmi redaktor:** T.e.n., dos. Baxışov M.Ə.

**Rəyçilər:** T.e.n., dos. Hüseynova E.Ə.
B/m. Hüseynov R.X.



# I Fəsil. Böyük Britaniya 1997-2008-ci illərdə

## 1997-2008-ci illərdə Böyük Britaniyanın daxili siyasəti

1997-ci ilin mayında Böyük Britaniyada növbəti parlament seçkiləri oldu. Seçkilərin nəticəsi əsas siyasi partiyalar üçün aşağıdakı kimi oldu: Leyborist partiyası seçicilərin 43,3%-nin səsini qazanaraq icmalar palatasında 419 yer əldə etdi, Mühafizəkar partiya isə seçicilərin 30,7%-nin səsini qazandı və icmalar palatasında 165 deputat yerinə nail oldu. Liberal demokratik partiya isə 1992-ci illə müqayisədə 20 yer artıq əldə etdi və parlamentə 50-dən çox deputat keçirə bildi.

Leyborist partiyası öz tarixində ilk dəfə belə üstünlüyə nail oldu. 1992-ci ildən başlayan iqtisadi artım (1990-1992-ci illərdə iqtisadi azalma olmuşdu) davam etsə də mühafizəkarlar uduzdu. Mühafizəkarların məğlub olma səbəblərindən biri seçkilər ərəfəsində xarici siyasətdə olan uğursuzluq idi. Avropa İttifaqı ölkələri ilə "inəklərin quduzluğu" xəstəliyinə görə ixtilaf meydana gəlmişdi. Avropa İttifaqı ingilis mal ətinin ixracına qadağanlıq qoymuşdu. Bundan başqa İngiltərə ingilis balıqçılarının mənafelərinə zidd olaraq, İspaniya və Portuqaliyaya öz ərazi sularında balıq tutmaq ixtiyarı vermişdi. Mühafizəkarlar partiyası son 18 ildə hakimiyyətdə olmuşdu, seçicilər isə ölkənin birinci şəxsləri arasında dəyişikliyə nail olmağı arzulayırdılar. Leyboristlər seçkiqabağı kampaniyada

Şotlandiya və Uelsə muxtariyyət verilməsi məsələsindən bacarıqla istifadə etdilər və bu vilayətlərin əhalisi də leyborist partiyasına səs verdi. Mühafizəkarlar isə Şotlandiya və Uelsdən deputat keçirə bilmədilər və icmalar palatasında ancaq İngiltərəni təmsil etdilər. Beləliklə, Mühafizəkarlar partiyası regional partiyaya çevrilmiş oldu.

Seçkilərin nəticələrinə görə Leyborist partiyası başda Entoni Bler[1] olmaqla hökumət təşkil etdi. O, partiyanın sağ cinahını – neoleyboristləri təmsil edirdi.

XX əsrin 80-90-cı illərinin hüdudlarında Leyborist partiyası və Liberal demokratik partiyasında ölkənin siyasi sisteminin modernləşdirilməsinə maraq meydana gəldi. Bu proses konstitusiya islahatı adını aldı. Bu partiyalar 1992-1997-ci illərdə sözü gedən məsələdə əməkdaşlıq etməyə başladılar. Onlar birgə sənəd hazırladılar və bu sənəddə Britaniya üçün XXI əsrin tələblərinə cavab verən müasir konstitusiya işləyib hazırlayacaqlarına söz verdilər. 1997-ci ilin parlament seçkilərindən sonra Leyborist partiyası və Liberal demokratik partiya nazirlər kabineti yanında məsləhətçi komitə yaratdılar, konstitusiya islahatını reallaşdırmaq üzrə məsələləri birgə həll etməyə başladılar.

Artıq 1997-ci ilin sentyabrında Şotlandiya və Uels böyük muxtariyyət hüququ aldılar (bu proses devolution adını aldı). 1999-cu ilin mayında isə

[1] Entoni Çarlz Bler 6 may 1953-cü ildə hüquqşünas ailəsində anadan olmuşdur. Şotlandiya nəsillidir. 1983-cü ildən parlamentin üzvüdür, 1994-cü ildən Leyborist partiyasının lideridir.



Şotlandiya parlamentinə və Uelsin nümayəndəli məclisinə seçkilər oldu. Konstitusiya islahatının sonrakı addımı lordlar palatasının islahatı oldu. Bu palata irsi perlərdən və zadəgan titulu olan ledilərdən və cəmiyyət qarşısında böyük xidmətləri olan ömürlük üzvlər olan adamlardan ibarət idi. Bura həmçinin iki arxiyepiskop və anqlikan kilsəsinin 24 baş yepiskopu da daxil idi. Bu vaxt üçün Lordlar palatasında 100 nəfərdən artıq adam iştirak edirdi (qərar qəbul etmək üçün yetərsay 3 nəfər idi). Bu palata feodalizmin tipik qalığı idi. 1999-cu il oktyabrın 27-də Lordlar palatası səs əksəriyyəti ilə (221 səs 81-ə qarşı) irsi lordları səs vermə hüququndan məhrum etdi və onlar lordlar palatasından qovuldular.

E.Bler hökumətinin Şimali İrlandiya məsələsinin həlli sahəsində göstərdiyi səylər də müvəffəqiyyətlə başa çatdı. Stormont qəsrində keçirilən danışıqlar nəticəsində Böyük Britaniya, İrlandiya respublikası nümayəndələri və Olsterin siyasi partiya liderləri arasında 1998-ci il aprelin 10-da Pasxa sazişi imzalandı. Bu saziş əsasında Böyük Britaniya ilə İrlandiya arasında müqavilə imzalandı. Müqavilə 1998-ci il mayın 22-də Şimali İrlandiyada və İrlandiya Respublikasında keçirilən referendumlarda bəyənildi. Olster Birləşmiş Krallığın tərkibində saxlanıldı, lakin onun İrlandiya respublikası ilə əlaqələri möhkəmləndirildi. Qanunverici-icraedici orqan – Şimali İrlandiya Assambleyası (məclis) yaradıldı. Bu orqanda bütün siyasi partiyalar iştirak edirdi. Proporsional sistem

əsasında 108 deputat seçilirdi, Assambleya 12 nəfərdən ibarət nazirlər kabineti yaradırdı. Nazirlər Kabinetində qərar mütləq səs əksəriyyəti ilə qəbul edilirdi. Olsterin və İrlandiya Respublikasının iştirakı ilə Şimal – Cənub nazirlər şurası yaradılırdı. Şura turizm, kənd təsərrüfatı, nəqliyyat məsələlərini qarşılıqlı razılaşma yolu ilə müzakirə edirdi. İrlandiya Respublikası konstitusiyasının ada üzərində respublikanın suverenliyini bərpa etməsini, habelə 2-3 il ərzində silahlı qruplaşmaları tərksilah etməyi nəzərdə tutan 2-ci və 3-cü maddələrini ləğv etmək nəzərdə tutulurdu. 1999-cu ilin sonunda Stormont çağrıldı, Olsterdə idarəetmə orqanları yaradıldı. 2007-ci il üçün Şimali İrlandiyanın bütün ekstremist qrupları qəti olaraq tərksilah edilməli idi. 2001-ci ilin oktyabr ayında İRA elan etdi ki, tərksilaha başlayır. Bu qərarın qəbul edilməsinə 11 sentyabr 2001-ci il hadisələrinin böyük təsiri oldu. ABŞ-da katoliklər ehtiyat etməyə başladılar ki, onları terrorla əlaqədə günahlandıra bilərlər. Həm də 2001-ci ilin yayında Kolumbiyada İRA üzvlərindən biri həbs edilmişdi. Bu şəxs "sol narko-terrorçu qrupu" təlimatlandırırdı, amerikan katolikləri isə İrlandiya respublikanizminə maddi və mənəvi yardım göstərirdi. 2003 və 2007-ci illərdə Şimali İrlandiyada Stormonta seçkilər oldu. Protestant və katoliklərdən ibarət qarışıq hökumət yaradıldı. 2007-ci il iyulun 31-dən avqustun 1-nə keçən gecə Britaniya qoşunlarının Şimali İrlandiya ərazisindən çıxarılması başa çatdırıldı (1969-cu ildən burada yerləşdirilmişdi.)



E.Bler hökuməti dövlət sosial siyasətində islahat keçirməyə meyl göstərdi. Leyboristlər vətəndaşların dövlət yardımından asılılığını ixtisar etmək kursu qəbul etdilər. Böyük Britaniyada dövlət yardımı ilə 17% əhali yaşayırdı (və ya $^1/_6$). Hökumətin fikrinə görə bu məsələyə yenidən baxmaq ehtiyacı var idi. Nəticədə bəzi müavinətlər ixtisar edildi (uşaqlara verilən), işsizliyə görə verilən müavinət sistemi dəyişdirildi (13 həftə müddətində). Hökumət yoxsullara yardım göstərməyi davam etdirdi. 10% ən yoxsul ailənin real gəlirləri 9,35 artdı, əksinə 10% varlı ailələrin real gəlirləri 0,7% azaldı. Lakin leyboristlər vergiləri nə artırmadılar, nə də əksiltmədilər. Onlar ancaq bəzi vergi güzəştlərini ləğv etdilər (ev alarkən, banklarda saxlanılan pula görə). Bu göstərir ki, hökumət dövlət yardımını effektiv bölüşdürməyə çalışırdı.

Leyboristlərin hakimiyyəti vaxtı xüsusi kapitalın təhsil və səhiyyə sahəsinə sirayət etməsi gücləndi. Tələbələrin $^2/_3$-si üçün pulsuz təhsil sistemi yaradıldı, tələbələrin $^1/_3$-i təhsil pulunu özləri ödəyirdi. Baza tibbi xidmət sahələri pulsuz oldu.

Böyük Britaniya insan embrionunun klonlaşdırılmasını leqallaşdıran ilk ölkə oldu. 2001-ci il yanvarın 31-də verilən qanuna görə uşaqların klonlaşdırılması qeyri-qanunidir: iki həftəlik vəziyyətə gələn embrion məhv edilməlidir. Onun kletkaları vasitəsilə diabet, skleroz, Parkinson xəstəliyini və hətta ola bilsin xərçəng xəstəliyini sağaltmaq olar.

2001-ci ilin iyunun 7-də növbəti parlament seçkiləri oldu. Bu seçkilərdə də Leyboristlər qələbə çaldılar. Onlar 406 deputat yeri əldə etdilər, mühafizəkarlar 158 yerə, liberal-demokratlar isə 46 yerə nail oldular. Leyboristlər yenə də E.Bler başda olmaqla hökumət təşkil etdilər.

E.Blerin neoleyborizmi kiçik biznesə münasibətdə, özünü açıq surətdə büruzə verdi. Leyborist hökuməti kiçik biznesə münasibətdə səy göstərir və onun inkişafını stimullaşdırırdı. Bu məsələdə neoleyboristlərlə neomühafizəkarların mövqeyi uyğun gəlirdi. E.Bler hökuməti hesab edirdi ki, kiçik sahibkarlığın inkişafını onlara verilən kredit şərtlərini yaxşılaşdırmaq yolu ilə təmin etmək olar.

E.Bler hökumətinin həyata keçirdiyi tədbirlər ölkənin iqtisadi inkişafına şərait yaratdı. Sabit maliyyə-iqtisadi göstəricilər Leyborist partiyasının mövqeyini möhkəmləndirdi. Hökumət isə planlaşdırılmış dəyişiklikləri davam etdirirdi. 2004-cü ilin yanvar ayında parlament hökumət tərəfindən təklif edilən ali təhsilə görə pul ödənilməsi haqqındakı qanun layihəsinə səs verdi. Hökumət hesab edirdi ki, Britaniyada ixtisaslı kadrlar çatışmır. Universitetlərin işini yaxşılaşdırmaq üçün vəsait çatışmır. Ona görə hökumət təklif etdi ki, ali məktəbi bitirənlər təhsil haqqını diplom aldıqdan sonrakı 25 il ərzində qismən ödəmək hüququna malik olsunlar. Bunun üçün müxtəlif kurslar üçün müxtəlif tarif qoyulurdu. Bu qanun layihəsi ümumi narazılıq yaratdı. Lakin bəzi qeyd-şərtlər irəli sürüldükdən sonra qanun layihəsi çox çətinliklə parlamentdən keçirildi. Qanun



layihəsinin lehinə 316, əleyhinə isə 311 deputat səs verdi.

Bler isə yeni ənənə yaratmaq – seçkiləri dörd ildə bir dəfə keçirmək niyyətində idi. Buna görə parlament 2005-ci ilin aprel ayında buraxıldı və 5 may 2005-ci il üçün yeni parlament seçkiləri təyin edildi. 1992-ci ildən başlanan iqtisadi yüksəliş leyboristlərin vaxtında da davam edirdi, inflyasiya sabit idi və ildə 2%-dən artıq olmurdu. Bu da son 30 ildə ən aşağı göstərici idi. Ümummilli məhsulun artımı 3% idi ki, bu da Avropa İttifaqı üzrə ümumi göstəricilərdən üstün idi. İşsizlik isə 5%-dən aşağı idi. Ev almaq üçün aşağı faiz tarifləri qoyuldu, sosial ödənişlər artırıldı, habelə pulsuz məktəb və xəstəxanaların büdcələri də çoxaldıldı.

Bu vaxt üçün Leyborist partiyası da dəyişdi. Bler Həmkarlar İttifaqları ilə sıx münasibətlərdən imtina etdi (onsuz da bu təşkilatlar Tetçerin siyasəti ilə zəiflədilmişdilər), Tetçerin həyata keçirdiyi islahatların əksəriyyətinə toxunmadı, "yeni leyborizm" şüarı ilə demək olar ki, bütün cəmiyyəti birləşdirdi. Leyboristlər fəhlə sinfinin partiyasından "bir millətin" partiyasına çevrildilər.

Bütün bunlar Leyboristlərin 2005-ci ilin parlament seçkilərində qələbə çalmalarına şərait yaratdı. Buna həmçinin Mühafizəkarlar partiyasının mövqe etibarilə zəif olması da yardım etdi (1997-2005-ci illərdə partiyanın üç lideri bir-birini əvəz etmişdi). Mühafizəkarlar partiyası daxilindəki çəkişmələr, habelə Mühafizəkarlar partiyasının

liberal-demokratik partiyası tərəfindən təqib edilməsi də onu zəiflədirdi.

2005-ci il mayın 5-də parlament seçkiləri oldu. Leyboristlər yenidən qələbə çaldılar və tarixdə ilk dəfə üç dəfə dalbadal seçkilərdə qələbə qazandılar. Seçkilərin nəticələrinə görə leyborist partiyası parlamentdə 356 yer (37%), Mühafizəkarlar 197 yer (33%), liberal-demokratik partiya isə 62 yer (22%) qazandı. Lakin bu seçkilər göstərdi ki, əvvəlki seçkilərlə müqayisədə leyboristlərin mövqeyi zəifdir. Leyboristlər 4% seçici səsi itirdilər, lakin Mühafizəkarlar və liberal demokratlar əksinə öz mövqelərini möhkəmləndirdilər. Buna baxmayaraq, leyboristlər 324 mandat əldə edərək hökumət təşkil etdilər. E.Bler üçüncü dəfə hökumətə başçılıq etdi.

E.Blerin yeni hökumətinin proqramında səhiyyədə, təhsildə, küçə cinayətkarlığına qarşı mübarizədə, ailələrə yardım edilməsi sahəsində, mühacirətin qaydaya salınmasında, Şimali İrlandiyada tənzimləmənin başa çatdırılması sahəsində tədbirlər görülməsi nəzərdə tutulurdu.

2006-cı ilin mayında yerli hakimiyyət orqanlarına seçkilərdə mühafizəkarlar və liberal demokratlar leyboristləri qabaqladılar (40%,27%,26%). Seçkilərin nəticələrinə leyborist hökuməti ətrafındakı qalmaqallar öz rolunu oynadı. Onlardan ən gurultulusu daxili işlər nazirliyinin işindəki müvəffəqiyyətsizlik oldu. Bu nazirliyin başçısı etiraf etdi ki, min nəfər ağır cinayət törədən xarici vətəndaş həbsxanalarda müəyyən müddət otursalar da azadlığa çıxandan sonra deportasiya



edilməmişlər və ölkədə qalmışlar. Buna görə ölkədə mühacirət əleyhinə hərəkat gücləndi, şovinist qruplaşmalar fəallaşdı. Onlardan ən böyüyü Britaniya milli partiyası tələb edirdi ki, 1948-ci ilə qədər olduğu kimi, ağ adamların ölkəsi yaradılmalıdır, islamı isə "qəddar din" adlandırırdı.

Leyborist partiyasının reytinqinə 2005-ci il iyulun 7-də baş verən terror aktı da təsir göstərdi. Həmin gün dörd partlayış oldu. Onlardan üçü metro qatarlarında, biri isə avtobusda oldu. Bu partlayışlar çoxlu insan tələfatına səbəb oldu. Londonda terror aktları əvvəllər də baş verirdi, onları İRA-nın döyüşçüləri həyata keçirirdi. Lakin insan tələfatı ilə nəticələnən terror aktı 32 il idi ki olmurdu. Terror aktına görə məsuliyyət "Əl Qaidə" ("Avropada Əl-Qaidə cihad gizli təşkilatı"qrupu) üzərinə qoyuldu. Bu partlayışlar mühacirət əleyhinə əhval-ruhiyyəni də gücləndirdi.

İyul faciəsinin izləri əsasında hökumət terror təhlükəsinə qarşı mübarizə aparmaq üçün qanun layihəsi təklif etdi. Layihədə terror fəaliyyətində şübhəli bilinənlərin təqsiri elan edilmədən həbsdə saxlanması 14 gündən üç aya qədər müəyyən edilir, "terrorizmi tərifləməyə" görə isə yeddi il həbs cəzası verilirdi. Lakin qanun layihəsi icmalar palatasından keçmədi.

2005-ci ilin noyabrında hökumət tərəfindən qəbul edilən və on il ərzində atom elektrik stansiyalarının yeni sistemini yaratmaq planı da narazılıq yaratdı. Bler hesab edirdi ki, bu planın məqsədi ölkənin enerji təhlükəsizliyini təşkil

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

